Xarici investisiyaların milli iqtisadiyyatın inkişafında müsbət rolu xeyli dərəcədə investisiya siyasətinin sosial yönümündə təzahür edir. Xarici investisiyaların ölkəmizin təbii ehtiyatlarının istifadəsində iştirakının əsas istiqamətlərindən biri kimi əldə edilən mənfəətin əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, xalqın ümumi sərvətlərinin ədalətli bölgüsünə yönəldilməsinin təmin edilməsi olduğu fikri ilə razılaşmamaq mümkün deyildir.

Milli iqtisadiyyatda xarici investisiyaların axının gücləndirilməsi və onların beynəlxalq standartlara müvafiqn şəkildə qorunması üçün əlverişli şəraitin yaradılması ölkənin iqtisadi siyasətinin əsas istiqamətlərindəndir və strateji əhəmiyyətli bir istiqamət kimi diqqqət mərkəzində olmalıdır.

***Ədəbiyyat:***


1. İsayev S.Z. İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı, 2010.
2. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimləməsinin əsasları. Bakı, 2011.
3. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, 2011.


## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNÜN İQTİSADİYYATI


*Əliyeva Səbinə Rövşən qızı*
*Elmi rəhbər: Süleymanova Təranə Əhməd qızı*
*Mingəçevir Dövlət Universitetinin*


1991-ci ildə öz müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası 1918-1920-ci illərdə 23 ay ərzində mövcud olan və müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində dərin və zəngin iz qoymuşdur.

Gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər Azərbaycan xalqının tarixinin parlaq səhifəsidir.

Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qızlar üçün məktəblər, uşaq bağçaları, qısa müddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerlərində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan Parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır.

Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəlliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər

bağlamışdı. Bu da Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi əlaqələri üçün çox əlverşli imkan yaratmışdır.

Qeyd edək ki, 1919-cu ildə Azərbaycanın dövlət büdcəsi 665 milyon manatdan ibarət idi. Onun əsas hissəsi neft satışı və gəlirə görə vergilər hesabına artırdı. Həmin illər üçün bu göstərici 30% idi.

Müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sistemi yaradıldı. 1919-cu ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bankı açıldı. Maliyyə Nazirliyinin 1919-cu il 20 iyul tarixli qərarı ilə əmtəələrin sərbəst ixracına nail olunması nəzərdə tutulurdu. Parlament xəzinəyə müəyyən rüsum keçirmək şərti ilə xammal ixracına icazə verilməsinə dair qanun qəbul etdi.

1918-ci ilin əvvəlindən Bakıda yeni kağız pullar - "Bakı bonları" buraxıldı. Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanması ilk vaxtlardan Hökumətin iqtisadi siyasətinin əsas məsələsi oldu. Xatırladaq ki, 1918-ci ildə Cənubi Qafqazda üç valyutadan istifadə edilirdi: çar rublu, kerenk (müvəqqəti hökumət tərəfindən buraxılmış rubl) və Zaqafqaziya hökumətinin Tiflisdə çap etdirdiyi bon. 1918-ci ilin sentyabr ayında dördüncü valyuta meydana gəldi – Azərbaycan bonları və ya manat, bu ADR-in şəxsi valyutası idi. Qeyd edək ki, bu pullar Bakıda çap edilirdi. İstifadədə əsasən 10 və 25 manatlıq əsginazlar, eləcə də 50 manatlıq əsginazlar idi. Amma 1919-cu ildə artan böhranla bacarmayan hökumət məcburən 100 manatlıq və daha yüksək nominalı olan əsginazlar buraxmağa başladı.

Məhdud büdcə hesabına Azərbaycanda neft sənayesi ağır vəziyyətdən çıxarılmış, dağıdılmış Bakı - Batum neft kəməri bərpa olunmuş, Bakı - Culfa dəmiryolu inşası davam etdirilmiş, Kür çayı üzərində körpü salınmış, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirilmişdi. O illərdə yaradılmış gömrük xidməti xəzinəyə 100 milyon manat yatırmışdı.

Büdcə əsasən vətəndaşlara, xüsusilə sənaye fəhlələrinə əmək haqqı ödənilməsi üçün istifadə edilirdi. Təhsilə 30 milyon manat, hərbi tələbata isə 80 milyon manat sərf edilirdi.

Bu dövrdə neft sənayesi iqtisadiyyatın əsas sahəsi sayılırdı, çünki bu zaman neft dünyanın ən önəmli hərəkətverici qüvvəsi idi. Odur ki, Parlament və Hökumət neft hasilatı və emalının vəziyyətini vaxtaşırı təhlil edir, dünya neft bazarını öyrənirdi. İqtisadiyyatda neft sektorunun aparıcı roluna baxmayaraq, o illərdə Azərbaycan daha çox aqrar, xüsusilə də heyvandarlığa istiqamətlənmiş ölkə kimi tanınırdı.

Əsas strateji mallara tələbat idxal hesabına ödənilirdi. Buğdaya olan tələbatın ödənməsi üçün Azərbaycan 7 milyon pud (112 milyon ton) buğda və 16 ton şəkər almalı oldu.

Ölkənin enerji potensialı artırdı. Bu dövrdə elektrik stansiyalarının gücü 63,7 min kilovata çatırdı, ondan 56 min kVt "Ağ şəhər" və "Bibiheybət" stansiyalarının payına düşürdü.

Belə ki, Amerika, Fransa, İtaliya və digər dövlətlərin istehsalı olan hərbi mallar, telefon aparatları, minik avtomobilləri, 100 paravoz, 2 min sisterna, 5 min qapalı vaqon ərzaq məhsulları üçün Azərbaycan əsasən neft, pambıq, yun, ipək və gön ilə ödəmə edirdi.

Respublikada qısa zaman ərzində neft sənayesi, aqrar və milli məsələlər barədə, seçkilərin demokratikləşdirilməsi haqqında, maarif və vətəndaşlığa dair bir sıra dekret və qanunlar qəbul edildi.

Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından heç də geri qalmırdı.

Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

Azərbaycan xalqı 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra bü günə qədər bütün dünyaya göstərdi ki, bu xalq, bu dövlət dünyada öndə gedən olkələrlə yanaşı birgə addımlamaq əzminə malikdir.

***Ədəbiyyat:***

1. Azərbaycan Xalq Cümhuriyyəti - 90: (1918 – 1920): Biblioqrafiya. URL: https://anl.az/down/az.xalq.cumhuriyyeti.pdf

## INHISARÇILIQ FƏALIYYƏTININ DÖVLƏT TƏNZIMLƏNMƏSI MEXANIZMININ TƏKMILLƏŞDIRILMƏSININ ƏSAS ISTIQAMƏTLƏRI

*Əhmədzadə Vəzduha Səyyad qızı*
*Elmi rəhbər: Nəsibova Arifə Carı qızı*
*Mingəçevir Dövlət Universiteti*

Müasir dövrdə ölkəmizində rəqabət mühitinin optimallaşdırılması və onun dövlət tərəfindən tənzimlənməsi iqtisadi və sosial inkişaf etmiş ölkələr siyahına daxil olmaq üçün zəruridir. Bu da antiinhisar və rəqabət sahəsində normativ– huquqi aktların və dövlət idarəetmə sisteminin təkmilləşdirilməsini tələb edir. Dövlət tənzimlənməsi səmərəli olmaqla real vəziyyətə adekvat alət və vasitələrlə həyata keçirilməlidir ki, həm qiymətlərin səviyyəsinə, həm də müxtəlif sahələrdə innovasiya və texnoloji dəyişikliklərin intensivliyinə bilavasitə təsir edə bilsin.

Dövlətin antiinhisar siyasəti mövcud olan qanunvericilik və elmi-nəzəri baxışlara əsaslanmaqla dövlət orqanları qarşısında bu sahədə qısamüddətli və uzunmüddətli fəaliyyət planının təyin edilməsi vəzifəsini qoyur. Nə qədər ki, iqtisadçılar ölkədə həyata keçirilən antiinhisar siyasətini və onu reallaşdıran orqanların cəmiyyət üçün səmərəsini, hansı antiinhisar tədbirinin labüd olmasını, hansınınsa cəmiyyətin rifahına müsbət təsir etdiyini tam izah etməyiblər, o vaxta kimi qanunvericilik əsasən daha kəskin və gözə çarpan birbaşa əsassız qiymət artımı, sövdələşmə, inhisarçılıq etmək naminə birləşmənin kimi halların qarşısını almağa istiqamətlənəcəkdir.

Ümumən, dövlət müasir şəraitdə öz siyasətində antiinhisar tədbirlərinə nisbətən rəqabəti müdafiə tədbirlərinə üstünlük verməklə tənzimləyici nəzarət məqsədlərinin, tənzimləmə hüdudlarını, istifadə olunan metod və tədbirlərin, nəzarətin təşkili formalarının və s. dəyişdirilməsi kimi mexanizmlərə diqqəti artırmalıdır.